**Son illər elmin idarə edlməsi sahəsində müəyyən boşluqların yaranması səbəbindən elm sahəsinə elmə dəxli olmayan insanların kütləvi axını baş verdi. Heç bir elmi fəaliyyət göstərməyən, elm sahəsində hər hansı bir nəticəsi olmayan bəzi millət vəkillərinin və dövlət məmurlarının öz vəzifələrindən sui-istifadə edərək elmi iş müdafiə etməsi, elmi tutullara yiyələnməsi elm adamları tərəfindən vaxtaşırı olaraq tənqid edilib.**

# Şübhəli yollarla dərəcə almış alimlərin elmi adlarının geri alınması mexanizmi gündəmdə...

*İlqar Orucov: "Keçmişdə saxta yollarla alimlik dərəcəsi alan adamların elmi dərəcələrinin ləğv edilməsi ilə bağlı mexanizmin yoxluğu..."*



*"O zaman ulu öndər birmənalı olaraq elmə aidiyyəti olmayan dövlət məmurlarının elmi iş müdafiə etməsini qadağan etmişdi"*

Bu gün kifayət qədər məmur və millət vəkili var ki, elmlər doktoru, professor elmi dərəcəsi və adı alıb. Son zamanlar müxtəlif vəzifələr tutan insanların elmi adlara, dərəcələrə maraq göstərməsi artıq bir xəstəlik, epidemiya halı alıb.

Azərbaycan Milli Elmlər Akademiyasında rəhbər dəyişikliyi baş verdikdən sonra bu qurumda bəzi mənfi təzahürlərin aradan qaldırılması tendensiyasına başlandığı qeyd edilir. Aktual olan məsələlərdən biri saxta yollarla elmi dərəcə və elmi ad alan bəzi dövlət məmurlarının və millət vəkillərinin elmi dərəcələrinin ləğv edilməsi ilə bağlıdır. Artıq sosial şəbəkələrdə yayılan məlumatlara görə, elmi dairələrdə bəzi millət vəkilləri və məmurların elmi dərəcələrinin ləğv edilməsi gözlənir. Gəzən söz-söhbətlərə görə, onlarla bağlı təkrar attestasiya keçirilə bilər.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, elmi ictimaiyyəti ciddi narahat edən bu məsələ olduqca aktualdır. "Çox ciddi və aktual məsələyə toxunmusunuz. Əslində, dövlətdə yüksək vəzifə tutan məmurların, eyni zamanda, millət vəkillərinin, eləcə də iş adamlarının, bir sözlə, elmə aidiyyəti, elmi fəaliyyəti olmayan insanların elmi iş müdafiə edərək elmi ad almaları hər zaman cəmiyyət tərəfindən narazılıqla qarşılanıb. Bununla bağlı kəskin fikirlər səsləndirilib. Xatırlayıram ki, hətta ulu öndər Heydər Əliyevin dövründə belə faktlar baş vermişdi. O zaman ulu öndər birmənalı olaraq elmə aidiyyəti olmayan dövlət məmurlarının elmi iş müdafiə etməsini qadağan etmişdi. O bu qadağanı o dövlət məmurlarına qoymuşdu ki, onlar yüksək vəzifələr tuturdular və onların heç bir elmi fəaliyyəti yox idi, elmlə məşğul olmurdular. Ulu öndər elmə aidiyyəti olmayan dövlət məmurlarının elmi ad almasını hər zaman kəskin pisləyir və bunun zərərli hal olduğunu deyirdi. Belə insanların elmi iş müdafiə etməsilə bağlı, qeyri-rəsmi də olsa, bir qadağa vardı. Bu qadağaya da əməl olunurdu və o adamlar müdafiə edə bilmirdilər. Onların "alim olmaq" arzuları həmişə ürəklərində qalırdı. Hətta o alimlərlə görüşlərindən birində deyirdi ki, məmurlar var akademik olmaq istəyirlər, elmi dərəcə almağa can atırlar... Ulu öndər hər zaman bu hala qarşı mübarizə aparırdı.

Sonra zaman dəyişdi, bu istiqamətdə artıq müəyyən neqativlər ortaya çıxmağa başladı. Məmurların və millət vəkillərinin elmi dərəcələr alması elmin nüfuzdan düşdüyü zamanlara təsadüf etdi, o dövrdə bir çox elm adamı ölkəni tərk etmişdilər, bunun nəticəsində də elmdə boşluqlar yaranmışdı. Bu vəziyyətdə elə adamların elmə marağı artmağa başladı. Bir çox işbaz elmin idarə edilməsi sahəsində yaranan boşluqlardan sui-istifadə edərək, bu sahəyə kütləvi axın etməyə başladı. Onlar "öz fəaliyyətlərini" ortaya qoydular. Son bir neçə ildə isə millət vəkilləri, məmurlar, işbazlar, iş adamlarının elmi dərəcə alması daha da kütləviləşib və kəskin hal alıb. Bu o həddə çatdı ki, bu halın qarşısının alınması üçün Prezident Administrasiyası dövlət məmurlarının elmi iş müdafiə etməsini məhdudlaşdırmaq üçün Administrasiyadan rəsmi icazə alınması məsələsini ortaya qoydu. Amma deputatlar, iş adamları, hüquq-mühafizə orqanlarında işləyənlər elmi iş müdafiə etməkdən çəkinmədilər, onlar yenə "elmə gəlməyə" başladılar. Artıq elmi ad almaq bir dəb halına çevrildi".

İ.Orucov qeyd etdi ki, millət vəkilləri, iş adamlarının kütləvi surətdə elmi ad alması ilə bağlı Ali Attestasiya Komissiyasının keçmiş rəhbərliyinə qarşı ciddi ittihamlar vardı. İ.Orucovun sözlərinə görə, ittihamların əsas səbəbi elmdə plagiatlığın, oğurluğun artması, eləcə də elmi işləri o adamların özləri yazmaması idi. "Elmi işlərin müdafiəsini Prezident yanında Ali Attestasiya Komissiyası həyata keçirir. O vaxt narazılıqların səbəblərindən biri bu qurumun obyektiv işləməməsi idi. Bu qurumda neqativ hallar çox idi. Bu narazılıq o həddə çatdı ki, Ali Attestasiya Komissiyasının rəhbərliyi dəyişdirildi, qurumun əsasnaməsi yenidən hazırlandı. Bu kimi hallara qarşı mübarizə artıq rəsmi sənədlərdə öz əksini tapır. Amma məsələ ondan ibarətdir ki, bu neqativ məqam Azərbaycan üçün spesifik bir hala çevrilib".

Elmə aidiyyəti olmayan millət vəkilləri, dövlət məmurlarının elmi adlardan məhrum edilməsi məsələsinə gəlincə, İ.Orucov bildirdi ki, bu, "Elm haqqında" Qanunda öz əksini tapmalıdır. "Mövcud qanunvericilikdə bu müddəa öz əksini tapmalıdır ki, ona əsasən də elmi adlar ləğv olunsun. Çox təəssüflər olsun ki, bu kimi hallarla mübarizə mexanizmimiz yoxdur. Elmi adların geri alınması, alim əxlaqı məsələsi, bütün bunlar əlbəttə ki, qanunda öz əksini tapıb. Amma orada keçmişdə saxta yollarla alimlik dərəcəsi alan adamların elmi dərəcələrinin ləğv edilməsi ilə bağlı mexanizmin yoxluğu elmə aidiyyəti olmayan adamların elmi dərəcələrinin əlindən alınmasına maneə törədir.

**Bu baxımdan da inanmıram ki, bu problem o adamların elmi adlarının əllərindən alınması ilə bitəcək. Bu artıq baş verib. Hesab edirəm ki, bundan sonra Ali Attestasiya Komissiyası ciddi mövqe ortaya qoyacaq və belə hallar olmayacaq. Bəzən bu qədər böyük elmi titullar daşıyan adamların çoxu heç bu ada layiq deyillər. Baxırsan siyasi elmlər doktorudur, amma politologiyadan heç bir anlayışı yoxdur, bu elmi adı vəzifəsindən sui-istifadə edərək alıb. Belə adamların elmi dərəcələrinin ləğv edilməsi üçün elə bir mexanizm işlənib hazırlanmalıdır ki, beləleri bir də elmə tərəf baxmasınlar" - deyə İ.Orucov vurğuladı.**

*İradə SARIYEVA*